# Şəki "Xan Sarayı": mülahizələr, tarixi yanlışlıqlar və həqiqətlər

*Təranə Əli qızı Abdullayeva*
*Azərbaycan Dövlət Memarlıq və*
*İncəsənət Universitetinin doktorantı,*
*"Yuxarı Baş" Dövlət Tarix Memmarlıq*
*Qoruğunun direktoru*

Azərbaycan orta əsr memarlığının şah əsərlərindən və klassik nümunələrindən olan Şəki Xan Sarayı "Yuxarı Baş Dövlət Tarix-Memarlıq Qoruğu" ərazisində, qala divarları içərisində yerləşir. Saray qala içərisində olmasına baxmayaraq, qədim Şərq şəhərləri üçün səciyyəvi olan əlavə hasarla əhatə olunmuşdur. Tarixi mənbələrdə və 1819-cu ildə çar mayoru Lissanoviçin tərtib etdiyi aktda qala divarları içərisində, yəni iqamətgahda xanın ailəsi və xidmətçilər üçün müxtəlif təyinatlı tikililər, ayrıca bağ və çoxlu sayda fəvvarəli hövuz olduğu qeyd olunur. Tikililərin çoxunda xan nəslinin ayrı-ayrı üzvləri yaşayırmış. İndi ön fəsadın qarşısında olan bağdan başqa, ortasında düzbucaqlı fəvvarəsi olan bir bağ da sarayın arxa fəsadına bitişik, Xan sarayının quzey fəsadına ara tikilisi hesabına birləşdirilmiş, qış tikilisi də var imiş. Təəssüf ki, binaların əksəriyyəti çar Rusiyası zamanında dağıdılmış, dövrümüzə yalnız "Qala divarları" , xanlığın yay iqamətgahı olan "Xan sarayı", V-VI əsrdə tikilmiş "Dairəvi Məbəd" , iki hovuz, qoşa çinar ağacları gəlib çatmışdır. Hazırda qala içərisində olan digər binalar isə çar Rusiyası zamanında inşa olunmuşdur.

Dünya əhəmiyyətli tarix və memarlıq abidəsi olan Şəki " Xan Sarayı"
Qafqazda XVIII əsr memarlığının ən gözəl nümunəsi, İslam Şərqinin memarlıq incisi sayılır. Sarayın tikinti tarixi haqqında bəzi mənbələrdə bir-birini təsdiq etməyən müxtəlif yazılara rast gəlinir ki, bu da insanlarda fikir ayrılığına səbəb olur.

Məlum olduğu kimi saray XVIII əsrdə inşa olunub. Bir sıra Avropa, Rus, Azərbaycan tarixçiləri və yazıçıları sarayın inşa tarixini haqlı olaraq XVIII əsrin 60-cı illərinə, yəni 1761-62-ci illərə bağlasalar da, əksər Avropa və Avropa elmi fikrinin axarında olan bəzi Azərbaycan alimləri də səhvən sarayın inşa tarixini tikildiyi tarixi dönəmdəm uzaqlaşdırıb XVIII əsrin 1789-90-cı illəri ilə, Hüseyn xan Müştaqın oğlu Məhəmmədhəsən xanın adı ilə bağlayırlar. Tədqiqatçılardan Useynov və M.M. Məmmədzadəyə görə, saray 1797-ci ildə inşa olunmuş**[23;24;],** L. S. Brateniski və “Nuxa” ensiklopediyası” nın verdiyi məlumara görə isə sarayın memarı Zeynal Abdin olmuşdur **[3;16;].** Tədqiqatçılardan Konstantinov memarın adını “Hacı Zeynal Abdin” kimi**, [19,s.314-316],** İ.S. Seqal isə “Hacı Zeynal Abdul**”[ 22, s.15]** kimi qeyd etmişlər. İ.S.Seqalın sarayın kim tərəfindən və hansı ildə tikdirilməsi ilə bağlı fikrində də 1797-ci il faktı vurğulanmışdır **[22,s.15].** Çox buraxılışlı “Britannik”in 1911-ci il nəşrində də Şəki Xan Sarayının inşa tarixi 1790-cı il kimi göstərilir. Tədqiqatçı Çetin Bayramoğlu “Şəki Xan Sarayı” adlı məqaləsində sarayı tikən memarın adını şirazlı Zeynal Abdulla kimi qeyd edir. Ç. Bayramoğlu həmçinin sarayın inşa tarixində və ideya müəllifinin kim olması ilə də bağlı yanlış fikir irəli sürərək abidəni Məmmədhəsən xanın adı ilə bağlayır: “Binanın tikintisinə 1789-1790-cı ildə başlanılıb. Çox vaxt onun tikilmə tarixini səhvən “Şəkixanovların evi” nin, “Müştaq imarəti” – “Qurğuşunlu otağ”ın tikilmə tarixi ilə qarışdırırlar. İndi bizim Şəki Xan Sarayı kimi tanıdığımız bu bina - “Məhəmmədhəsən xan Divanxanası” 1789-1790-cı ildə Məhəmmədhəsən xan tərəfindən tikdirilmişdir” **[13;]** - yazaraq heç bir inandırıcı dəlil gətirmədən tarixi yanlışlığa yol vermişdir. Sarayın seyrçilərindən olmuş, araşdırıcı Elnarə Günəş də “Şəki Xan Sarayının fəlsəfəsi” adlı məqaləsində sarayla bağlı tarixi yanlışlığı dəstəkləmək mövqeyindən çıxış edərək yazır: “Bu bina (Şəki Xan Sarayı nəzərdə tutulur-T.A) Məhəmmədhəsən xan tərəfindən tikdirilmişdir**”[3;].**

Sarayın 1789-1790-cı illərdə Məhəmmədhəsən xan tərəfindən tikdirilməsi şəkili türkoloq alim Aydın Məmmədov (bu şəxs ədəbiyyatşünas, türkoloq mərhum Aydın Məmmədov deyildir – T. A) tərəfindən də dəstəklənmişdir.O, professor Ədalət Tahirzadənin “Şəkinin tarixi qaynaqlarda”

əsərinə yazdığı şərhdə müəllifin nümunə gətirdiyi maddeyi-tarixlərə münasibət bildirərkən bu məsələyə münasibəti aşağıdakı kimi olmuşdur:“... 23-cü maddeyi-tarixdən isə Divanxananın, yəni indiki Xan Sarayının tikintisinə başlanılma tarixi (hicri: 1204 (1789/90)-cü il) məlum olur. Elmi ədəbiyyatda isə bu çox vaxt səhvən,1760-1765-ci illər hesab edilirdi **[61]**. Tədqiqatçının fikrincə, Ədalət Tahirzadə vaxtilə Çələbi Əfəndi Zari tərəfindən deyilmiş 2 məşhur maddeyi-tarixi kitabının müvafiq bölməsinə daxil etməmişdir. Hansı ki həmin maddeyi-tarixlərdən biri “Hüseyn xan imarətinin”, yəni indiki “Şəkixanovlar evinin” tikilməsi münasibəti ilə qələmə alınmışdır. “Xan sarayından” əvvəl, hicri 1183(1765/1766)- cü ildə tikilmiş bu bina, əvvəllər qala divarları ilə əhatə olunmuşdu, başqa sözlə,o, qalanın içində idi. Məhəmmədhüseyn xanı da məhz, həmin evdə güllə ilə yaralayıb tutmuşdular. Ora “muzəyyən otaq“, yaxud “qurğuşunlu otaq” da deyirdilər. Yeri gəlmişkən, “Şəkixanovların evi” olan məhəllə yəqin ki, əvvəllər “muzəyyən otaq eşiyi”, ya da “Qurğuşunlu otaq eşiyi” adlanıbmış ki, sonralar birinci söz ixtisara düşərək “Otaq eşiyi” qalmışdır**” [61].** Yuxarıda söylənilən fikirlə bağlı gəldiyimiz nəticə budur ki, tədqiqatçı A. Məmmədov 1765-1766-cı illər tarixini hazırda gözəlliyi ilə dünyaya səs salan Şəki Xan Sarayının deyil, Şəkixanovların evinin tikilməsinə aid edir. Bu fikirin nə dərəcədə doğru olduğunu söyləyə bilməsək də, aşağıda nümunə gətirəcəyimiz Çələbi Əfəndi Zarenin “Bir müzəyyən imarət etdi ki, Qəsri-Firdövs tək bəsi-mərğub” maddeyi-tarixi sübut edir ki, bu şeir hazırkı Şəki Xan Sarayının tərifinə deyilmişdir. Çünki “Şəkixanovların evi” adlandırılan bina Şəki Xan Sarayı qədər cəlbedici deyildir.

Araşdırıcı Fariz Hüseynovun “Hər addımında tarix çağıran şəhər” məqaləsi tarixi həqiqətin bərpasına xidmət edir. Müəllif çox düzgün olaraq qeyd edir ki, “Saray 1762-ci ildə Şəki hakimi Məhəmmədhüseyn xanın dövründə inşa olunub**[4;].** Saray haqqında son illərin maraqlı mənbələrindən olan Fərid Əşrəfoğlu və Zeynal Məmmədli tərəfindən qələmə alınmış “Şəki Xan Sarayı” adlı nəfis tərtibatlı kitabda və Gülcöhrə Məmmədovanın və Səbinə Hacıyevanın “Şəki Xan Sarayı ” adlı kiçik həcmli yazılarında düzgün olaraq sarayın tikilmə tarixi 1762-ci

il kimi göstərilmişdir. Sarayın ideya müəllifinin Hüseyn xan Mütaq olduğunu vurğulayan Z. Məmmədli yazır: "1762-ci ildə Şəkidə Şərq memarlığının ən zərif incilərindən biri Hüseyn xan tərəfindən ucaldıldı**"[ 6, s.7 ].**

Digər bir seyrçi – araşdırıcı Mehparə xanım da "Gerçəyin rəvayətə qarışdığı tarix" adlı yazısında "Sarayın tikilmə tarixi mənbələrdə 1760-1765-ci illər göstərilir**"[5;]** yazaraq düzgün elmi qənaətə gəlmişdir."Şərq" qəzetinin 2011-ci il 29 aprel sayındakı "Şəki xanlarının sarayı" adlı məqalədəki qeydlər də tarixi həqiqəti göstərən yazı kimi əhəmiyyət kəsb edir. Məqalədə yazılır: "Dünyada öz orijinallığı ilə yeganə olan xan sarayını 1762-ci ildə "Müştaq təxəllüsü ilə şeirlər yazan Hüseyn xan tikdirmişdir". Çikaqo Universitetinin professoru Odri Altştad, macar yazıçısı Şandor Rado da sarayın inşasını Hüseyn xanın adı ilə bağlayıb 1760-cı ucaldıldığı qeyd edirlər. "Rəssamlıq ensiklopediyası" da sarayı 1761-1762-ci illərə aid edir. "Azərbaycan Sovet Ensiklopediyası"nda sarayla bağlı qeydlərdə də binanın XVIII əsrin 60-cı illərində Hüseyn xan Müştaq tərəfindən tikdirildiyi bildirilir **[1,s.502-503].** Tarixçi alim Nazim Mustafanın da sarayla bağlı məlumatında binanın inşa tarixi 1762-ci il kimi qeyd edilir**[7;20,s.13-14].**

Şəki Xan Sarayının Hüseyn xan Müştaq tərəfindən tikilməsini tam dürüstlüyü ilə ortaya qoyan mənbələr Müştaq dövrünün günümüzə qədər gəlib çıxan şeir örnəkləridir. Görkəmli ədəbiyyat araşdırıcısı Salman Mümtaz "Hüseyn xan Müştaq" adlı məqaləsində Şəkidə memarlıq incilərindən sayılan Xan Sarayının və Cümə Məscidinin Müştaq tərəfindən tikilməsini təsdiqləyən Müştaq poeziya məclisinin üzvlərindən olmuş Ağcayazlı Hacı Məhəmməd Çələbi Əfəndi Zarinin iki şeirini nümunə kimi ortaya atır. Şeirlərdən biri imarətin, digəri isə məscidin tikilməsinə həsr edilmişdir. Şəki Xan Sarayının müəllifinin Hüseyn Xan Müştaq olmasını təsdiqləyən şeirdə deyilir:

Hüseyn xan mədələti – ayin,
Təxtü bəxt hökumətə mənsub.

Rifətü cahi üzrə qaim ola,
İzzü dövlətdən olmaya məslub.

Bir müzəyyən imarət etdi ki,
Qəsri – Firdövs tək bəsi – mərğub.

Bu binai – lətif tarixin,
İstədim bu idi mənə mətlub

Gəldi piri – xürd dedi tarix
Fərəhəfza binai – mənzili xub**[9, s.93-93 ].**

Bu bədii nümunə sübut edir ki, Şəki Xan Sarayı Hüseyn xan Müştaq tərəfindən tikdirilmişdir**.** Lakin yuxarıda qeyd etdiyimiz kimi, nədənsə Qərbi və Şərqi Avropa alimlərinin, səyyah və yazıçılarının qeydlərində sarayın inşa tarixi səhvən XVIII əsrin sonlarına aid edilərək Hüseyn xan Müştaqın oğlu Məhəmmədhəsən xanın adı ilə bağlanır. 1859-cu ildə Şəkidə olmuş məşhur fransız yazıçısı Aleksandr Düma (ata) da sarayın inşa tarixini Məhəmmədhəsən xanın adı ilə bağlayaraq yazmışdı: "Bütün memarlıq çalarlarını özündə əks etdirən Xan Sarayı şəhərin yuxarı hissəsində yerləşir. O, Məhəmmədhəsən xan tərəfindən 1792-ci ildə tikdirilmişdir"**[14, s.326-327; 15;].**

Ümumiyyətlə, sarayı müstəqil Şəki xanlığının əsasını qoymuş Hacı Çələbi xanın nəvəsi Hüseyn xan Müştaqın 1762-ci ildə tikdirdiyi elmi fikirdə öz təsdiqini tapmışdır. Elə bu səbəbdəndir ki, **4 iyul 2012-ci il tarixdə sarayın 250 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur.** Sarayın xalq arasında "Müştaq imarəti" adlanması da onun Hüseyn xan Müştaq tərəfindən tikdirilməsi faktını təsdiqləyir.

Sarayın inşa məqsədləri də elmi fikirdə böyük maraq doğurur. XIX əsrdə yaşamış rus jurnalisti Nikolay Bersenovun fikrincə, saraydan əvvəllər xanın yaşayış evi kimi, sonralar isə məhkəmə binası kimi istifadə olunmuşdur**[21,s.283**]. Bəzi qeydlərdə saray xanın yay istirahət məkanı kimi də xatırlanmışdır. İ.S. Seqalın qeydlərindən məlumatlanırıq ki, " Şəki xanlığı Rusiyaya birləşdirildikdən sonra saraydan yerli inzibati bina kimi istifadə olunmuş və tez – tez təmir edilmişdir. 1853 – cü ildə saray istisna olmaqla qalanın içərisində yerləşmiş

tikililərdən rus əsgərləri üçün kazarma və türmə kimi, həmçinin ibadət ocağı olan kilsə kimi istifadə olunmuşdur."**[22,s.15].** Səyahətçilərin qeydlərində sarayın göstərdiyi dərin təsirin izləri qalmaqdadır**[17].** Saray haqqında rus yazıçı və diyarşünaslarından Aleksanr Kornilovun, Andrey Fadeyevin, Lev Nikolayeviç Tolstoyun, Nikolay Rayevskinin, İlya Berezinin, türk şairi Nazim Hikmətin, fransız səyyah Aleksandr Dümanın və başqalarının maraqlı qeydləri mənbələrdə qalmışdır. 1826-cı ildə Şəkidə olmuş N.N.Rayevski Şəkini: "Yüksəkdə duran "Baxçasaraya bənzətmiş, "Xan sarayı "haqqında isə belə yazmışdır: "Orada bu diyarın keçmiş xanlarının sarayı var, hansı ki, çox gözəldir və Baxçasaray sarayı ondan daha az təəsürat yaradır".

Tanınmış türk şairi N.Hikmət isə saray haqqında təəsüratını belə ifadə etmişdir: "Əgər Azərbaycanın başqa tikililəri olmasaydı belə Şəki xan sarayını dünyaya göstərmək bəs edərdi **[2]"** Qafqaz səfərinə çıxmış, 1859-cu ildə Şəkidə olmuş məşhur Fransız yazıçısı Aleksandr Düma (ata) isə belə qeyd etmişdir: "Xudaya , sən özün bu gözəl tarixi abidəni yadellilərdən qoru**"[ 14,s.324 ].**

Sarayın memarı ikinci mərtəbənin zalının tavanında naxış içərisində adi iki dəfə-sağdan-sola və soldan-sağa qeyd olunmuş Ustad Abbasqulu hesab olunur. Onu da qeyd edək ki, elə sarayın ən qədim rəsmləri də bu otaqda Ustad Abbasqulu tərəfindən işlənmiş rəsmlərdir. Həm də Abbasqulunun "usta" yox "ustad" adlandırılması onun sarayın memarı olması ehtimalını daha da gücləndirir. Abidənin ikinci mərtəbəsinin tavanında sarayın memarı hesab olunan Abbasqulunun imzası, onunla yanaşı bərpaçı Qəmbərin adının (Əməli nəqqaş Qarabaği Qəmbər, 1302(hicri) qeyd olunması qənaətimizi təsdiqləyir. İkinci mərtəbədəki xanın iş otağının divarındakı iki naxışın içərisindəki yazılar da diqqətçəkicidir. Yazılardan biri fars dilindədir və mənası belədir: "Mən bunu yazdım yadigar, mən qalmaram bu qalacaq yadigar". İkinci yazıda isə aşağıdakı cümlə yazılıb: "İlahi sən Əlinin xatirinə Qurbanəlinin günahlarını bağışla. " Qubanəli bildiyimiz kimi sarayın bərpaçılarından olub. Rus sənətşünası Konstantinov isə 1946-cı ildə yazmış olduğu "Nuxa" adlı məqaləsində Sarayın şirazlı Hacı Zeynal Abdin tərəfindən tikilməsi iddiasını irəli sürərək yazır: "Bu

saray (Şəki Xan Sarayı nəzərdə tutulur-T.A) şərq memarlığının bütün elementlərini özündə əks etdirməklə 1790-cı ildə şirazlı Hacı Zeynal Abdin tərəfindən tikilmişdir **[19].**

XVIII əsrin 60-cı illərində inşa edilən Şəki Xan Sarayı XIX-XX əsrlərdə 5 dəfə bərpa edilmişdir. Şəki xanlığı Rusiya imperiyasına birləşdirildikdən sonra 1848-1851-ci illərdə Hüseyn xan Müştaqın nəvəsi şair Kərim ağa Fateh sarayı bərpa etdirib. XIX əsrin sonu, XX əsrin əvvəllərində saray yenidən bərpa olunub. 1895-1896-cı illərdə şamaxılı nəqqaş Mirzə Cəfər 1-ci, 1902-ci ildə şuşalı usta Qəmbər, qardaşı Səfər, oğlu Şükür, şamaxılı rəssam Əliqulu və Qurbanqulu 2-ci mərtəbəni bərpa etmişlər**[16].** Tədqiqatçıların qeydlərində özünə yer alan Mirzə Cəfərin sənətkar kimi qüdrəti ilə bağlı İrəvan Xan Sarayının interyerində Şəki Xan Sarayı ilə oxşarlığı müqayisə edən tarixçi alim Nazim Mustafanın da qənaəti belədir ki, hər iki sarayın qurulmasında memar Mirzə Cəfərin əməyi vardır. Alim fikrini aşağıdakı qeydləri ilə təsdiqləyir: "Sarayın memarı ( İrəvan Sarayı nəzərdə tutulur – T.A) Mirzə Cəfər Xoylu idi. Əhməd xan Mirzə Cəfəri Hüseynəli xanın xahişi ilə İrəvana göndərmişdi ki, xan sarayının inşasına rəhbərlik etsin. Şəki xan sarayı 1762 - ci ildə inşa edilsə də, İrəvan xan sarayı ilə Şəki xan sarayının Güzgülü salonlarının tamamilə bir - birinə bənzəməsi onu deməyə əsas verir ki, onların memarı eyni şəxs və yaxud eyni memarlıq məktəbinin nümayəndəsi olmuşdur. Görünür, Xoylu Əhməd xanın oğlu Cəfərqulu xan 1806-cı ildə Şəki xanı olduqdan sonra İrəvan xan sarayındakı Güzgülü salonun memarlığı üslubunda salon tikdirmişdi. Şəki xan sarayının divarında kalliqrafik xətlə yazılan "Usdad Mirzə Cəfər" adı çox güman ki, Xoyda və İrəvanda xan saraylarını inşa etdikdən sonra Səki xan sarayının tikintisində də memarlıq edən həmin Mirzə Cəfər Xoyluya aiddir"**[20,s.13-14].**Təsdiqedici əsas faktlardan biri budur ki, sarayın divan otağının hər iki qapısının başında bərpaçı nəqqaş şamaxılı usta Cəfərin adı qeyd olunub.

Şəki xanlığı Rusiya imperiyasına birləşdirildikdən sonra 1848-1851-ci illərdə Hüseyn xan Müştaqın nəvəsi şair Kərim ağa Fateh sarayı bərpa etdirib. . XIX əsrin sonu XX əsrin əvvəllərində saray yenidən bərpa olunub. 1895-1896-cı

illərdə şamaxılı nəqqaş Mirzə Cəfər birinci, 1902-ci ildə Şuşalı usta Qəmbər, qardaşı Səfər, oğlu Şükür, şamaxılı rəssam Əliqulu və Qurbanqulu ikinci mərtəbəni bərpa etmişdir. 1921-ci ilin aprel ayının 25-də Azərbaycan Bərpa Komitəsi Nuxa və Şuşadakı Xan saraylarının bərpasına 25 milyon rubl pul ayırır. 13 mart 1939-cu ildə Ümumittifaq Memarlıq Akademiyası komissiyanın iclasında memar P.Baranovski tərəfindən Şəki Xan sarayının bərpasına dair hesabat təqdim olunmuşdur.

1959-1967-ci illərdə memar N.Q.Rzayevin layihəsi və rəhbərliyi ilə sarayda əsaslı bərpa aparılmış, abidə ilkin vəziyyətdə təmir olunmuşdur. Rəssamlardan F.Hacıyev, şəbəkə ustası Ə. Rəsulov bərpada iştirak etmişlər.

Sarayın sonuncu bərpası Azərbaycan Respublikası ilə Beynəlxalq İnkişaf Asossiyasının arasında bağlanmış kredit sazişi əsasında “Mədəni İrsin Qorunması” layihəsi çərçivəsində Dünya Bankı tərəfindən ayrılmış vəsait hesabına 2002-ci ilin sentyabr ayından 2004-cü ilin noyabr ayına kimi “Denkmalpfleqe Mecklenburq” şirkəti ilə Şəki sənətkarları birlikdə aparılmışdır. Şəkili şəbəkə ustaları və rəssamlar, Əsədullayev Kamal Mikayıl oğlu, Məmmədov Gündüz Vəlyəddin oğlu, Hacımustafayev Hüseyn Tofik oğlu, Hacımustafayev Həsən Tofik oğlu, Rəsulov Tofik Əşrəf oğlu, Paşayev Rahim Məmmədiyyə oğlu, Qaffarov İlham Səməd oğlu, Həmidli Tahir Əhmədiyyə oğlu, Əzizli Mənsur Qara oğlu, Məmmədov Səbuhi Məmməd oğlu, Əfəndiyev Fuad Nurməmməd oğlu, Qasımov Məmməd Nadir oğlu, Dadaşov Söhrab Tapdıq oğlu, Məmmədov Asim Sabir oğlu, Səmədov Nazim Abdulcəlil oğlu və Kərimov Kamal Məmməd oğlu 2002-2004-cü illərdə aparılmış bərpa işlərində yaxından iştirak etmişlər.

Saray memarlıq üslubuna görə Azərbaycan milli mədəniyyətinin bütün elementlərini özündə əks etdirmişdir. Sarayın divarlarını bəzəyən müxtəlif naxışlı ornamentlər Şərq rəssamlıq məktəbinin milli xüsusiyyətlərini özündə əks etdirir.

**İstifadə edilmiş ədəbiyyat**

**1. Azərbaycan Sovet Ensiklopediyası. Baş redaktor C.B. Quliyev. On clddə. X cild. Bakı: Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası, 1987, 608 s.**

**2. Binanın memarlıq əzəməti Nazim Hikməti də riqqətə gətirib. http: anl.az**

3. Elnarə Günəş. Şəki Xan Sarayının fəlsəfəsi.zim.az/region/2988-ki-xan-saraynın-

4. Hüseynov. F. Hər addımda tarix çağıran şəhər. http: //medeniyyet.az

5. Mehparə. Şəki Xan Sarayı: rəvayət. http:// medeniyyet.az

6. Məmmədli. Z. Şəki Xan Sarayı. Bakı: Tuti, 2006, 183 s.

7. Nazim Mustafa. Xan Sarayı. www.iravan.info

8. Salamzadə.Ə.R, Məmmədzadə. K. M. Şəkinin memarlıq abidələri. Bakı: Elm, 1987, 140 s.

9. Salman Mümtaz. Azərbaycan ədəbiyyatı qaynaqları. Bakı: Avrasiya – Press,2006, 440 s.

10. Şəki xanlarının sarayı və Şəkixanovların evi. https:// Sheki.io.ua

11.Şəki Xan Sarayı.qadın.net/index.php?newsid -56614

12.Şəki Xan Saray. Kataloq.gomar.az

13.Şəki Xan Sarayı. https: //çetinbayramoqlu baku.wordpress.com

14. Александр Дума. Кафгаз. Баку : Нагыл е ви, 2011, 648s

15. Александр Дюма. Кавказ / Под. ред. профессора Т. П. Буачидзе.Тбилиси: Мерани, 1988, ст. 149 с

16. Бретаницкий Л. С. К истории Дворца Шекинских ханов. Труды Института истории им. А. Бакиханова. Баку, 1947.

17.Бретаницкий.Л.С.(архитектура),Ю.А.Казиев,КД. Керимов (изобразительноеи декоративно-прикладное искусство). Искусство Азербайджана / Под ред. Б. В. Веймарна. История искусства народов СССР:в9томах. Т. 5. М: Изобразительное искусство, 1979, 361s

18. Эфэндиев. Р. Исторические памятники Нухи. Изв. Азкомстварис. Баку, 1927, стр. 66

19. Константинов. Нуха // Кавказ.15 июня 1946 г.. № 24.

20.Назим Мустафа. Иреванское ханства: Ханский дворец, разрушенный армянскими вандалами. Баку: Общественное обьединение историков Азербайджана, 2016, 48 с.

21. Нуха // Энциклопедический словарь Брокгауза и Ефрона : в 86 т. (82 т. и 4 доп.). М: СПб, 1890-1907.

22. Сегаль. И.Л. Елисаветпольская губернии. Впечатления и воспоминания. //Кавказский вестник, Тифлис, 1902, ст 15.

23.Усейнов.М.А.Памятникиазербайджанского зодчества. М.: Государственное издательство архитектуры и градостроительства, 1951, 162 с.

24. Усейнов. М.А. История архитектуры Азербайджана. М.: Государственное издательство литературы по строительству, архитектуре и строительным материалам, 1963, 395 с.

25. Bersenov.N. Skizzen aus Kaukasien. Nucha/ Dr. Clemens Friedrich Meyer. Belletristische Blätter aus Russland. St. Petersburg T. 2. , 1854, 283 s

**Абдуллаева Тарана Али кызы**

**Дворец Шекинских ханов: рассуждения, исторические превратности и истины**

**Резюме**

В статъе Тараны Али кызы Абдуллаевой «Дворец Шекинских ханов: рассуждения, исторические превратности и истины» исследованы взгляды, исторические превратности азербайджанских, европейских и русских ученых, связанные с историей сооружения Дворца Шекинских ханов и с тем, кто его соорудил. Автор анализируя мысли различных авторов, утверждает факт сооружения дворца в 60-х годов XVIII века в 1762 году.

**Tarana Abdullayeva Ali**

**Sheki Khan`s Palase : judgments, historical mistakes and truths**

**Summary**

In the of Tarana Ali Abdullayeva named “ Sheki Khan`s Palase: judments, historical mistakes and truths” the judgments of Azerbaijan, Europe and Russsian scholars about the foundation history of Sheki Khan`s Palace and being built by whom were explored on mistakes and truths. Analizing the thoughts of different authors the author confirms the fact of the building of this Palace in the XVIII century, in 1762.

Açar sözlər: *Şəki Xan Sarayı, memarlıq, memarlıq abidəsi, tarixi yanlışlıq, Hüseyn xan Müştaq, Məhəmmədhəsən xan, tarixi həqiqət, Şəki xanlığı, qala divarları, məhkəmə binası, bərpa, interyer,*

Ключевые слова: *Дворец Шекинских Ханов, архитектура, архитектурные памятники, исторические превратности, архитектор, Гусейн хан Муштаг, Мамедгасан хан, историческая истина, Шекинское ханство, крепостные стены, здания суда, восстановление, интерьер.*

Key words: *Sheki Khan palace, architecture, architectural monuments, historical mistake, Huseyn khan Mushtag, Mehemmedhesen khan, building history of the palace, historical truth, Frensh wryter, Sheki khanate, painter, court building, ,restoration, interiot.*